# KAMANÇA İFAÇILIĞININ İNKİŞAFINDA CƏVAHİR HƏSƏNOVANIN XİDMƏTLƏRİ

**Abbasqulu Nəcəfzadə**
Sənətşünaslıq elmləri doktoru, professor
**E-mail:** a.najafzade@yahoo.com

Cəvahir Həsənova 1915-ci ildə Azərbaycanın dilbər guşələrindən birində, Şuşa şəhərində, sayılıb-seçilən ziyalılardan olan İbrahim kişinin ailəsində dünyaya göz açmışdır. Uşaq yaşlarından qızının musiqiyə həvəsini görən atası ona kamança bağlatdırır. XX əsrin 20-ci illərində Şuşada musiqi məktəbi olmadığından balaca Cəvahir kamançanı fərdi şəkildə öyrənməyə başlayır.

Xatırladaq ki, Şuşada ilk musiqi məktəbi Xalq artisti Bülbülün (Murtuza Rza oğlu Məmmədov - 1897-1961) təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 10 oktyabr 1932-ci il tarixli qərarına əsasən yaradılıb (1, s. 9). Həmin illərdə yeniyetmə Cəvahir dahi Üzeyir Hacıbəylinin (1885-1948) təşəbbüsü ilə Bakıya dəvət olunur. Bununla bağlı Əməkdar jurnalist Flora Xəlilova yazır: "Üzeyir bəy Cəvahirin valideynlərini, yaxın qohumlarını yaxşı tanıyırdı. Azyaşlı qızın musiqi istedadını ilk dəfə kəşf edən görkəmli bəstəkar onu özünün təşkil etdiyi (1931) xalq çalğı alətləri orkestrinə işə götürür. Cəvahir Həsənova eyni zamanda Azərbaycan Dövlət Musiqi Məktəbində kamançadan dərs deyir. Üzeyir bəy gənc Cəvahirin bu qədim aləti necə ustalıqla səsləndirdiyinin məftunu olmuşdu. İnana bilmirdi ki, mükəmməl musiqi təhsili almayan gənc bir xanım kamançanın bütün sirlərini, incəliklərini bu dərəcədə müfəssəl bilər. Deyilənə görə, Üzeyir bəy onu dinləməkdən yorulmazmış... Hətta bir dəfə Cəvahirin ifasından sonra söyləyib: "Sən sadəcə çalmırsan, qızım. Elə bil ki, ürəyin dil açıb oxuyur. Bu, kamança səsi yox, insan səsidir. Var ol, qızım!" (3).


Cəvahir Həsənova

Texnika elmləri doktoru, professor Ziyadxan Nəbibəylinin verdiyi məlumatdan da bəlli olur ki, C.Həsənova bir müddət Azərbaycan Dövlət Musiqi Məktəbində müəllim kimi çalışıb (6, s. 3). 25 yaşı olarkən, yəni 1940-cı ildə Cəvahir Həsənova Ü.Hacıbəylinin məsləhəti ilə "Kamança məktəbi" dərsliyini hazırlayıb (2). Dərsliyin tərtibində tanınmış skripkaçı, Azərbaycan Dövlət Konservatoriyasının professoru, sənətşünaslıq elmləri doktoru Leonid Semyonoviç Bretanski (1914-1979) də gənc musiqişünasa öz dəyərli məsləhət və tövsiyələrini əsirgəməmişdir. Bu dərslik uzun müddət uşaq musiqi məktəblərində kamança ixtisası üzrə kadrların yetişməsinə layiqincə xidmət göstərib.

Z.Nəbibəyli o zaman Azərbaycan Elmi-Tədqiqat Musiqi Kabinetinin rəhbəri vəzifəsində çalışmış Xalq artisti, professor Bülbülün C.Həsənova haqqında söylədiklərini təqdim edir: "Xalq musiqi alətlərinin inkişafı, onların Avropa musiqi alətləri ilə bərabər hüquq qazanması üçün Azərbaycan Dövlət Musiqi Məktəbinin pedaqoqu Cəvahir Həsənovanın "Kamança məktəbi" dərsliyinin yazılması xalq musiqi alətlərinin öyrənilməsində yeni addım olmaqla, musiqi məktəblərimizdə notlu kamança dərsi verilməsinə böyük kömək edəcək" (6, s. 3).

C.Həsənovanın hazırladığı "Kamança məktəbi" dərsliyindən uzun müddət Azərbaycanda uşaq musiqi məktəblərində istifadə edilib. Həmin kitabda məşğələlər yüksələn xətt üzrə, yəni sadədən mürəkkəbə doğru prinsipi ilə inkişaf etdirilməklə tərtib olunub. Onun vasitəsi ilə şagirdlər o dövrün ən sadə əsərindən başlayaraq mürəkkəb materiallara qədər mənimsəyirdilər. Aydındır ki, 1960-cı illərin sonunda artıq repertuar baxımından həmin dərslik tədricən öz əhəmiyyətini itirir və zamanla ayaqlaşmırdı. Yəni C.Həsənovanın dərsliyi müasir dövrün tələblərinə və tədris kursuna cavab vermirdi. Bu baxımdan yeni dərsliyin hazırlanmasına böyük ehtiyac duyulurdu. Həmin işi 1970-ci ildə tanınmış bəstəkar, Xalq artisti, professor Ramiz Mirişli (1934-2015) öz üzərinə götürdü. Sonradan, kitab nəşr olunarkən bəzi partokratlar beynəlmiləlçilik nümayişi məqsədilə erməni kamançaçalan Artuş Mkrtıçovun da adını həmmüəllif kimi əlavə etdilər (7). Nəhayət, 2009-cu ildə



1935-ci ildə çəkilib. I cərgə (soldan): 1. Ağabacı Rzayeva (tar), 2. Əminə Qafarova (tar), 3. Mustafa Quliyev (ədəbiyyatşünas), 4. Səid Rüstəmov (dirijor müavini), 5. Üzeyir Hacıbəyli (bədii rəhbər, baş dirijor), 6. Qönçə İsmayılova tar), Cəvahir Həsənova (kamança), 8. Xədicə Əhmədova (tar).
II cərgə: 1. Saleh Əbdüləlimov (balaban), 2. Məmməd Cavadov (klarnet), 3. Hacı Xanməmmədov (tar), 4. Əliağa Quliyev (tar), 5. Muxtar Axundov (tar), 6. Zeynal Tabasaranski (tar), 7. Hacıbaba Əliyev (kamança).
III cərgə: 1. Xəlil Cəlilov (tar), 2. Mikayıl Hüseynov (kamança), 3. Ağasəf Ağayev, 4. Cəmaləddin Geriqov, 5. Məmməd Orucov (tar), 6. Zeynal Hacıyev (tar)

haqq-ədalət bərqərar oldu. Ramiz Mirişli "Kamança məktəbi" kitabını yenidən işlənmiş şəkildə musiqiçilərin ixtiyarına verdi (8).

Bildirək ki, 1950-60-cı illərdə Azərbaycanın müxtəlif bölgələrinin musiqi təmayüllü texnikumlarında çalışan kamança müəllimləri digər alətlər üçün yazılmış əsərləri kamança üçün transpozisiya edərək işləmiş və tədrisdə əlyazma şəklində istifadə etmişlər. 1989-cu ildə ilk dəfə belə əsərləri toplu halında kamança müəllimləri Hafiz Kərimov (1942-1993) və Novruzəli Bayramov nəşrə hazırlamışlar (4). Həmin müəlliflər tərəfindən 1992-ci ildə də fərqli əsərlərdən ibarət belə köçürmələr işıq üzü görmüşdür (5).

C.Həsənova sonralar peşəsini, profilini dəyişir. O, dəqiq və texniki elmlərə meyl etdiyindən bu sahədə ali təhsil almağa qərar verir. Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olub və buranı əla qiymətlərlə bitirir. Təyinatını işləmək üçün Azərbaycan SSR Elmlər Akademiyası Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutuna verirlər və burada uzun müddət baş elmi işçi vəzifəsində çalışır. Cəvahir Həsənova həmin institutun Elmi Şurasının yeganə qadın üzvü idi. O, elmi yaradıcılıqla da fəal məşğul olur. 1951-ci ildə namizədlik dissertasiya işini uğurla müdafiə edərək neftçıxarma sahəsi üzrə texnika elmləri namizədi (texnika elmləri üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi alır və neft sahəsində ilk azərbaycanlı qadın alim kimi adı tarixə düşür. O, sonralar Şuşinskaya soyadını daşımışdır. Cəvahir Şuşinskaya 1976-cı ildə təqaüdə çıxır.

Böyük musiqiçi və alim Cəvahir Şuşinskaya (Həsənova) 1985-ci ildə, yəni 70 yaşında dünyasını dəyişmişdir.

Beləliklə, məqalədə uşaq musiqi məktəbləri üçün ilk "Kamança məktəbi" dərsliyini hazırlayan Cəvahir Həsənovanın həyat və yaradıcılığına nəzər yetirdik. Xatırladaq ki, ölkəmizdə ilk musiqi məktəblərinin və dərsliklərinin yaradılması barədə "Xalq çalğı alətlərinin tədrisi metodikası" adlı dərs vəsaitində geniş bilgi vermişik (9, s. 5-7).

Təqdim edilən məqalədən orqanologiya və çalğı alətlərinin tədrisi mövzusunda yazılacaq tədqiqat əsərlərində faydalanmaq mümkündür. ❖

**Ədəbiyyat:**

1. Ağamirov M.M. Şuşa musiqi məktəbi. B.: "Şuşa", 2003, 80 s.
2. Həsənova C.İ. Kamança məktəbi. B.: "Azərbaycan Dövlət Musiqi Nəşriyyatı", 1940, 128 s.
3. Xəlilzadə F.F. Cəvahirlər. "Azərbaycan" qəzeti, 14 mart 2016
4. Kərimov H.K., Bayramov N.N. Kamança və fortepiano üçün "Pyeslər məcmuəsi". B.: "İşıq", 1989, 124 s.
5. Kərimov H.K., Bayramov N.N. Kamança və fortepiano üçün "Azərbaycan bəstəkarlarının əsərləri". B.: "Şur", 1992, 148 s.
6. Nəbibəyli Z.İ. Böyük qadın, böyük ana. "Şuşa" qəzeti, 15 mart 2011, s. 3
7. Mirişli R.A., Mkrtıçev A. Kamança məktəbi. B.: "Azərnəşr", 1970, 118 s.
8. Mirişli R.A. Kamança məktəbi. B.: "Elm və təhsil", 2009, 202 s.
9. Nəcəfzadə A.İ. Xalq çalğı alətlərinin tədrisi metodikası. (Yenidən işlənmiş II nəşr). B.: "MBM", 2012, 92 s.

**Резюме**

Аббасгулу Наджафзаде

ЗАСЛУГИ ДЖАВАХИР ГАСАНОВОЙ В РАЗВИТИИ ИГРЕ НА КЕМАНЧЕ

В статье говорится об авторе книги впервые изданном в Азербайджане пособии по «Школе кеманчи» Джавахир Гасановой, а также о ее творчестве и научной деятельности.

**Ключевые слова:** Джавахир Гасанова, «Школа кеманчи», пособие, исполнительское искусство, ученый.

**Summary**

Abbasgulu Najafzade

JAVAHİR GASANOVA'S MERİTS İN THE DEVELOPMENT OF PLAYİNG THE KAMANCHA

In article the author is told about the first published in Azerbaijan textbook on "School of a kamancha" of Javahir Gasanova, and also about her creativity and scientific activity.

**Key words:** Javahir Hasanova, "School of a kamancha", textbook, performing art, scientist.